

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 52 (23.694)

*18 mart 2021-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva martın 16-da Şuşa şəhərində olublar. Səfər zamanı Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinə gəlinib, Pənahəli xanın sarayının qalıqlarına baxılıb. Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Molla Pənah Vaqifin büstünün qoyulacağı əraziyə gəliblər, Karvansaray tarix-memarlıq kompleksinə baxıblar, "Qarabağ" mehmanxanasında aparılacaq təmir-bərpa işləri ilə tanış olublar. Səfər çərçivəsində Şuşa Xalça Muzeyində də olublar, Şuşada Park otelin yerləşəcəyi binaya da baxılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 17-də Türkiyə Respublikasının kənd təsərrüfatı və meşə naziri Bekir Pakdemirlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Prezident İlham Əliyev həmin gün Slovakiyanın xarici və Avropa işləri naziri İvan Korçokun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 mart tarixli Sərəncamı ilə xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin bir qrup əməkdaşı təltif edilmişlər. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin də əməkdaşları vardır:

**Məmmədov Elnur Nizami oğlu**

**Seyidova Şəhanə Rizvan qızı**

"Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə" medalı ilə təltif edilmişlər.

## "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq muxtar respublikada televiziya və radio fəaliyyəti sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin əsasında "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin nizamnaməsinin layihəsini, strukturu və işçilərinin say həddi barədə təkliflərini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Bu Fərman 2021-ci il aprelin 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 17 mart 2021-ci il*

## Demoqrafiya sosial-iqtisadi inkişafı, iqtisadi inkişaf isə demoqrafik prosesləri tənzimləyir



*Əhali artımının sosial-iqtisadi şəraitdən, təbii amillərdən asılılığını, ərazilər üzrə yerləşməsini öyrənən demoqrafiya heç bir tarixi dövrdə sabit qalmamış, hər zaman müxtəlif dəyişikliklərlə müşahidə olunmuşdur. Azərbaycanda son illər baş vermiş sosial-iqtisadi dəyişikliklər də demoqrafik inkişafa öz təsirini göstərmiş, bu sahədə mühüm dövlət siyasəti ortaya qoyulmuşdur. Bu siyasətin uğurla həyata keçirilməsinin nəticəsidir ki, hazırda ölkəmiz öz iqtisadi nailiyyətləri ilə yanaşı, müsbət demoqrafik dəyişiklikləri ilə də diqqəti cəlb edir.*

Qeyd edək ki, demoqrafiya sahəsində yürüdülən siyasət, dövlətimiz tərəfindən həyata keçirilən sosial siyasətin mühüm tərkib hissəsidir. Çünki Prezident cənab İlham Əliyevin sosial siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır. Bu amil ölkəmizdə dayanıqlı iqtisadi inkişafın nəticələrinin, əldə olunan iqtisadi dividendlərin, ilk növbədə, əhalinin güzəranının yüksəldilməsinə yönəldilməsi, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılmasında real ifadəsini tapır. Dəfələrlə Azərbaycanın sosial sahəyə çox böyük diqqət göstərən ölkə olduğunu qeyd edən Prezident cənab İlham Əliyev demişdir: ***"Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir".*** Bunun nəticəsidir ki, Azərbaycan hazırda güclü iqtisadiyyata, güclü orduya, dünya birliyində güclü mövqeyə sahib olmaqla yanaşı, həm də güclü sosial siyasətə malik olan ölkəyə çevrilmişdir. Aparılan siyasətin mərkəzində isə Azərbaycan vətəndaşı, vətəndaş rifahının təminatı prinsipi dayanır və bu prinsip iqtisadi dividendlərin, ilk növbədə, əhalinin rifahına yönəldilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl addımların atılması ilə təsdiqini tapır.

Son illər Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi həyatında əldə olunmuş davamlı inkişaf da demoqrafik proseslərə öz müsbət təsirini göstərmiş, bu isə, öz növbəsində, əhali artımının əldə olunmasına şərait yaratmışdır. Məlum məsələdir ki, əhali artımında dinamika bir çox prinsiplərə söykənir. Məşğulluq məsələlərinin həlli, tibb və təhsil sahələrində müvafiq xidmətlərin əlçatanlığı, eləcə də bir çox sosial imkanlardan istifadənin yaxınlığı əhali artımında mühüm məsələlərdən biridir. Xüsusilə ötən onilliklərdə muxtar respublikada təhsil və səhiyyə müəssisələrinin tikilməsi və yenidən qurulması, məşğulluq məsələlərinin həlli ilə bağlı həyata keçirilən kompleks tədbirlər, o cümlədən ailə təsərrüfatı institutları və kiçik sahibkarlığın inkişafı istiqamətində görülən işlər və çoxsaylı sosial tədbirlər demoqrafik proseslərə öz təsirini göstərmiş, əhali artımında dinamikanın əldə olunmasına imkan vermişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, muxtar respublikada 1 yanvar 2021-ci il tarixə əhalinin sayı 2010-cu ilin sonu ilə müqayisədə 51,4 min nəfər artaraq 461,5 min nəfər olmuşdur. Ümumi əhalinin 95,1 min nəfəri Naxçıvan şəhərində, 117,9 min nəfəri Şərur, 76,5 min nəfəri Babək, 50,3 min nəfəri Ordubad, 47,3 min nəfəri Culfa, 33 min nəfəri Kəngərli, 25,3 min nəfəri Şahbuz, 16,1 min nəfəri isə Sədərək rayonlarında qeydə alınmışdır.

Hər ölkə üçün mühüm əhəmiyyət kəsb edən məqamlardan biri də əhali sayında gənclərin tutduğu yerdir. Çünki demoqrafik inkişafda yaşlanma və ölüm sayı ilə təbii artım arasında müəyyən bir mütənasiblik olur. Əhali rifahının aşağı olduğu ölkələrdə yaşlanma və ölüm faizi çox olduğundan təbii artım da yüksək olmur. Nəticədə, gənc nüfuzun sayı əhali sayı ilə müqayisədə xeyli aşağı olur ki, bu da məşğul əhali potensialına öz mənfi təsirini göstərir. Sevindirici haldır ki, bu gün muxtar respublikamızın əhali sayında gənclər mühüm yer tuturlar. Belə ki, statistikaya görə, 1 yanvar 2021-ci il tarixə muxtar respublikada gənclərin sayı 142,2 min nəfərə çatmışdır ki, bu da ümumi əhalinin 30,8 faizini təşkil edir. Yeri gəlmişkən, bunu da qeyd edək ki, bu gün muxtar respublikada əhalinin 35,4 faizi şəhər, 64,6 faizi isə kənd yerlərində yaşayır. Bir kvadratkilometrə düşən əhalinin sayı isə 84 nəfər təşkil edir ki, bu da 2010-cu ilin sonu ilə müqayisədə 9 nəfər çoxdur.

Beləliklə, demoqrafik proseslərdə qeydə alınmış müsbət dinamika davamlı və dinamik inkişafı, eyni zamanda sağlam cəmiyyətin formalaşdırılmasını təmin etmişdir. Buradan isə o qənaətə gəlmək mümkündür ki, demoqrafik proseslər cəmiyyət həyatının bir çox tərəfləri ilə qarşılıqlı surətdə bağlıdır. Bu əlaqə sosial-iqtisadi hadisələrin demoqrafik proseslərə, demoqrafik proseslərin isə sosial-iqtisadi hadisələrə təsirinin təzahürüdür.

**Səbuhi HƏSƏNOV**

*Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 19 iyun 2020-ci il tarixli 110 nömrəli qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası"na əsasən 2020-2021-ci tədris ilindən başlayaraq muxtar respublikada dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlər peşəkarlıq səviyyəsinin və peşə yararlılığının yoxlanılması məqsədilə sertifikatlaşdırmaya cəlb olunurlar.*

## Təhsilverənlərin sertifikatlaşdırılması davam edir



Yanvarın 14-dən muxtar respublikada sertifikatlaşdırmaya başlanılıb və bu proses aprelin sonunadək davam edəcək. Test mərhələsində tədris etdiyi fənn üzrə ümumtəhsil proqramlarına, tədris və təlim metodikalarına aid müvafiq keçid ballarını toplamış təhsilverənlər sertifikatlaşdırmanın müsahibə mərhələsində iştirak hüququ qazanmış olur. Beləliklə, 14-21 yanvar tarixlərində keçirilən test imtahanlarında 462 riyaziyyat müəllimi, 21 yanvar-13 fevral tarixlərində keçirilən test imtahanlarında 659 ibtidai sinif müəllimi, 15-20 fevral tarixlərində keçirilən test imtahanlarında isə 418 Azərbaycan dili və ədəbiyyatı müəllimi sertifikatlaşmanın müsahibə mərhələsində iştirak etmək hüququ qazanmışdır. Martın 15-dən isə tarix müəllimlərinin sertifikatlaşdırılmasının test mərhələsi aparılır.

Sertifikatlaşmanın II mərhələsi – müsahibə mərhələsi isə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin İmtahan Mərkəzində Təhsil Nazirliyinin Sertifikatlaşdırma Şurası tərəfindən aparılır.

Bu mərhələdə iştirak edən hər bir təhsilverənin qiymətləndirilməsi proqram üzrə mövzunu təqdimetmə, təhsilalanları qiymətləndirmə, özünü təqdimetmə, pedaqoji prosesi təşkiletmə və ünsiyyət bacarığı kimi meyarlar əsasında maksimum 40 balla aparılır. Müsahibə mərhələsində 21 yanvar-13 fevral tarixlərində riyaziyyat, 24 fevral-12 mart tarixlərində isə ibtidai sinif müəllimləri iştirak etmiş və uğur qazanaraq sertifikatla təmin olunmuşlar. Martın 13-dən isə Azərbaycan dili və ədəbiyyatı müəllimlərinin müsahibə mərhələsi aparılır. Bu proses aprelin 1-dək davam edəcək.

Qaydaya əsasən üzrlü, yaxud üzrsüz səbəblərdən sertifikasiyadan keçə bilməyənlər 1 il müddətində təkrar iştirak hüququna sahib olurlar. Hamilə qadınlar, ilk dəfə işə qəbul olunanlar, uşağının üç yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra bir ildən az müddətdə müvafiq vəzifədə çalışan qadınlar, həmçinin uşağını təkbaşına böyüdən kişilər sertifikasiya olunmurlar.

Qeyd edək ki, təkrar sertifikatlaşdırmadan keçməyən təhsilverənlərlə bağlanılmış əmək müqaviləsi həmin tədris ilinin sonunda Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 70-ci maddəsinin "c" bəndinə müvafiq olaraq ləğv ediləcək.

Muxtar respublikada təhsil daim inkişaf edən sahədir. Təhsilin inkişafına yönəlmiş addımlardan biri olan təhsilverənlərin sertifikatlaşması prosesinin davamlı olması hər bir müəllimin öz üzərində davamlı işləməsi, nəticəsini yaxşılaşdırması üçün ciddi bir stimul yaradır.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi***

# Türk-Azərbaycan xalqlarının birliyinin, məğlubedilməzliyinin rəmzi – Çanaqqala zəfəri

***Dünya hərb tarixinin ən güclü savaşlarından biri olmuş Çanaqqala zəfərindən 106 il ötür. 1915-ci ildə Mustafa Kamal Atatürkün rəhbərliyi ilə başlayan və Antanta birliyi kimi güclü donanmaya malik dövlətlərlə qeyri-bərabər döyüşlərdən qalib çıxan türk əsgəri öz qətiyyəti, cəsarəti və böyük qəhrəmanlığı ilə düşmənlərini geri oturdaraq adını tarixə yazdırmışdır.***

XX əsrin əvvəllərində 600 ildən artıq hökmranlıq etmiş Osmanlı imperiyası süquta doğru getməyə başlamışdı. Xaricdə və imperiya daxilində baş verən proseslər Osmanlını getdikcə çökdürür, onun dayaqlarını sarsıdırdı. Trablis və Balkan savaşlarındakı məğlubiyyət isə Avropadakı bütün torpaqların əldən çıxmasına səbəb olmuşdu. Mövcud vəziyyətdən istifadə edən böyük güclər öz maraqlarını təmin etmək üçün müxtəlif planlar qururdular. Belə ki, Rusiya boğazları ələ keçirib "isti dənizlərə" çıxmağı hədəfləyir, İngiltərə Süveyş kanalı və Hind okeanına gedən yolun təhlükəsizliyi üçün Fələstini ələ keçirmək istəyir, Fransa Livan, Suriya və Kilikiya üzərində hakimliyini arzulayır, almanlar Şərqə, italyanlar isə Antalyaya sahib olmaq istəyirdilər. Osmanlı dövlətinə məxsus boğazlar strateji baxımdan Antanta dövlətləri üçün ən əlverişli sayılırdı. Onların məqsədi bu boğazları tutmaqla Almaniya ilə Osmanlı Türkiyəsini bir-birindən təcrid etmək və İstanbulu ələ keçirməklə Osmanlı Türkiyəsinin Qara dənizdə hökmranlığına birdəfəlik son qoymaq idi.

1915-ci il fevralın 19-da Fransa və Britaniyaya aid 16 döyüş gəmisindən ibarət nəhəng donanma Osmanlı sahil qüvvələrini bombalayaraq Çanaqqala boğazına doğru irəliləyirdi. Lakin Gelibolu yarımadasına yerləşdirilən Osmanlı artilleriyası da düşməni göz açmağa qoymurdu. Müttəfiqlərin Aralıq dənizi qüvvələri komandanı admiral Carden Çanaqqala boğazını keçərək İstanbula girmək üçün üçmərhələli hücum planı hazırlamışdı və belə hesab edirdi ki, bir ay ərzində İstanbulu alacaqdır. O, planın gedişini sınaqdan çıxarmaq üçün 7 zirehli gəmi ilə kəşfiyyat xarakterli hücum həyata keçirdi və sahil qüvvələrinə zərbə vurdu. Türklər güclü müdafiə olunduqlarından ikinci hücum gecikdiriləräk 1915-ci il 19-25 fevral tarixləri arasında, 7 gün fasilələrlə davam etdirildi. Onlar ancaq türk toplarının atış mənzilindən kənardan edilən atəşlərlə Türkiyənin müdafiə qüvvələrinin 19 topunu sıradan çıxarmaqla müəyyən müvəffəqiyyət qazandılar və fevralın 26-da boğaza girdilər. Müvəqqəti müvəffəqiyyətdən başı dumanlanan Carden Londona teleqraf göndərərək 14 gün müddətinə İstanbula girəcəyini bildirdi. Üçüncü mərhələ ciddi hazırlıqdan sonra martın 18-də həyata keçirildi. Düşmən boğaza yaxın məsafədə topladığı 36 müxtəlif döyüş, 7 təyyarə gəmisi, 7 dənizaltı, 14 minatəmizləmə gəmisi və 6 yardımçı gəmilərin böyük bir hissəsi ilə hücuma başladı. Bu döyüşlərdə türk müdafiəsinin ən önəmli yeri Müstahkəm mövqeyi idi. 1915-ci ilin ilk aylarında burada 27 bölük halında qurulmuş bir mina qrupu ilə 104 top vardı. 6 saatlıq döyüşdə düşmənin 3 gəmisi batırıldı, 3-ü isə ağır zərbə alaraq döyüş qabiliyyətini itirməklə geri çəkildi.

Beləliklə, İstanbulu bir aya ələ keçirmək xəyalı bir donanmanın maddi və mənəvi məhvinə səbəb oldu. Dəniz döyüşlərində ağır zərbə alan müttəfiq ordular qurudan əməliyyat keçirmək məqsədilə sahilə qoşun çıxarmaq qərarına gəldilər. Bunun üçün bir aydan artıq hazırlıq görüldü. Aprelin 24-dən başlayaraq müttəfiq donanması müəyyən məsafəyə qədər boğaza yaxınlaşdı, ancaq quruya qoşun çıxara bilmədilər. Aprelin 28-də Kirtə ətrafındakı döyüşlərdə böyük itki verən ingilislər geri çəkildilər. Quruda ağır döyüşlərdən biri də aprelin 24-də və 25-də başlanıb fasilələrlə davam edən Arıburnu döyüşü idi. Döyüşdə Mustafa Kamalın komandanlıq bacarığı nəticəsində ciddi müvəffəqiyyətlər əldə edilmiş, Arıburnu, Anafartlar, bütövlükdə, Gelibolu yarımadasında böyük müvəffəqiyyətlər qazanılmışdı. Dəniz döyüşlərində olduğu kimi, Çanaqqala ətrafında gedən quru döyüşləri də müttəfiqlərin ordularını geri çəkməsi və türk ordusunun zəfəri ilə bitdi.

Çanaqqala döyüşü həm də gələcək qurtuluş savaşının şərəfli başlanğıcı oldu. Dəniz və quru qoşunlarını əhatə edən, bütün çətinliklərə baxmayaraq, türk hərb tarixinin şərəfli səhifələrindən birinə çevrilən Çanaqqala döyüşü Atatürk kimi bir dahini yetişdirmiş, gələcək qurtuluş savaşında onun liderliyinə əsas zəmin olmuşdur. Hər biri ayrı-ayrılıqda qəhrəmanlıq nümunəsi sayılan döyüşlərdə itirilən insanların sayına və sosial mənşəyinə nəzər salanda mübarizənin bir ümumxalq mübarizəsi olduğuna heç bir şübhə qalmır. Bu döyüşdə əhalinin bütün təbəqələri iştirak edirdilər. Çoxlu sayda ziyalı həm vuruşur, həm də əsl vətənpərvərlik təbliğatı aparırdı. Bu da təbii ki, texniki imkanlar baxımından avropalılardan xeyli dərəcədə geridə olan türk ordusunun mənəvi qüdrətini və döyüş ruhunu nəzərəçarpacaq dərəcədə artırdı. Türklər döyüşdə elə vuruşurdular ki, sanki gələcəyin mübarizəsi gedirdi. Zəif silahlanmış, lakin son dərəcə döyüşkən və əzmkar olan türklərin o dövrün ən son hərbi nailiyyətlərindən istifadə edən avropalıları geri oturtması onların mərdlik və cəsurluğunun parlaq nümunəsi kimi qiymətləndirilir. Çanaqqalada türk əsgərlərinin göstərdiyi mətinlik və cəsarət düşmən generallarını və siyasi xadimlərini belə, heyrətə gətirmişdi. İngiltərənin baş naziri Uinston Çörçill "Türklər Çanaqqalada ən müasir silahlarla silahlanmış güclər qarşısında bir qala kimi dayanmışdılar", ingilis generalı Oqlander isə "Türk əsgərlərinin döyüşdə göstərdikləri igidliklərin nəzərə alınmaması ingilislər üçün fəlakət oldu" demişdilər.

Bir millətin gücünü ortaya çıxararaq nələr edə biləcəyini göstərən bu şərəfli döyüş, yəni Türkiyə Cümhuriyyəti qurulduqdan sonra ingilis və fransız donanmalarının geri çəkilməyə məcbur edildiyi o tarixi gün – 18 mart Çanaqqala Şəhidlərini Anma Günü olaraq elan edilmişdir. Müttəfiqlər üçün isə bu döyüş əsgəri bacarıqsızlıq və fəlakət simvolu kimi sayılmışdır. Bununla yanaşı, Çanaqqala döyüşü məhvolma vəziyyətindəki bir ölkənin möhtəşəm qələbəsi kimi artıq hər bir türk vətəndaşının mübarizliyinin simvolu kimi əbədiləşmişdir.

Tarixi həqiqətlərdən biri də budur ki, Çanaqqalada və digər ərazilərdə qanlı döyüşlərin getdiyi bir dövrdə ermənilər türk xalqına arxadan zərbə vuraraq "ikinci cəbhə" açdılar. Hərbi əməliyyatlar başlayan kimi Türkiyə Böyük Millət Məclisinə Ərzurumdan deputat seçilən Qaro Basdırmacan ermənilərdən ibarət hərbi hissələrlə birlikdə rusların tərəfinə keçdi. Qaronun başçılıq etdiyi dəstələr türk kəndlərini dağıdır, əhalini amansızcasına qırırdılar. Tək bir gündə – 21 fevral 1914-cü ildə Qarsda və Ərdahanda erməni quldur dəstələri tərəfindən 30 min türk qətlə yetirilmişdi. Ermənilərin türk-müsəlman əhalisinə qarşı soyqırımı 1915-ci illə bitmədi, əksinə, sonrakı illərdə daha da şiddətləndi, 1916-cı il mayın 11-də Malazgird şəhərində 20 min türk vəhşicəsinə öldürüldü.

İstər Çanaqqala zəfərinin əldə edilməsində, istərsə də ermənilərin törətdikləri soyqırımının qarşısının alınmasında Azərbaycan xalqının qəhrəman övladları da yaxından iştirak etmişlər. Çanaqqala döyüşlərində türk ordusu 253 min şəhid vermişdir. Arxiv sənədlərindən məlum olur ki, şəhid olanların 3 mini azərbaycanlı idi. Azərbaycan xalqı qan və can qardaşlarını cəbhədə tək qoymamış, qəhrəman oğullarımız türk əsgərləri ilə çiyin-çiyinə yağı düşmənə qarşı rəşadətlə vuruşmuşlar. Birinci Dünya müharibəsi dövründə, xüsusilə 1915-ci ildən başlayaraq Osmanlı ərazilərində Azərbaycan könüllülərindən ibarət dəstələr təşkil edilirdi. Bu taborlara daxil olan könüllülər Qafqaz və Cənubi Azərbaycandan olduqları üçün bölgəni yaxşı tanıyırdılar və onlardan cəbhədə istifadə etmək haqqında Osmanlı hökuməti tərəfindən xüsusi qərar qəbul edilmişdi.

Birinci Dünya müharibəsi ərəfəsində və ondan sonrakı dövrlərdə azərbaycanlıların Türkiyəyə göstərdiyi yardımlar haqqında tədqiqatçı, jurnalist Abdulhamit Avşar yazırdı: "Milli mübarizənin başlanması ilə Azərbaycan türkləri Anadoluya mənəvi dəstəyi ilə birlikdə, müxtəlif maddi dəstəklər də göstərmişdir. Bu maddi dəstək mövzusu çox önəmlidir. Çünki Azərbaycan Xalq Cümhuriyyəti o tarixlərdə hələ bir yaşında dövlət idi. Hələ öz varlığını qəbul etdirmək, yaşamaq uğrunda mübarizə aparmaqda idi. Bu vəziyyətə və yardımına ehtiyac duyduğu güclərin Anadolu milli mübarizəsinin düşmənləri olduğuna baxmayaraq, əlindən gələn yardımı göstərməyə çalışmışdır". Daha sonra müəllif Türk Silahlı Qüvvələri Baş Qərargahının Arxiv İdarəsindəki sənədlərə istinadən yazır ki, Azərbaycan Ordusundan alay böyüklüyündəki bir birlik Albay Səməd bəyin komandanlığında Cənubi Azərbaycan üzərindən Ərzuruma gələrək Anadolu milli mübarizəsi sıralarına qoşulmuşdur. Azərbaycan hərbi birliklərinin Türkiyə ordusuna qoşulacağı xəbərini ilk olaraq Silahlı Qüvvələrin Baş Qərargah rəisi İsmət İnönü vermişdir. Belə ki, 8 iyul 1920-ci il tarixdə Türkiyə Böyük Millət Məclisində ümumi hərbi vəziyyətlə bağlı çıxış edən İsmət bəy Azərbaycandan kömək məqsədilə əlavə bir qüvvə gəldiyini açıqlamışdır. Bir piyada taboru və bir süvari alayından ibarət olan birlik dərhal Şərq cəbhəsinə göndərilmişdir. 15-ci süvari alayına qoşulan birlik Şərqi Anadolunun ermənilərdən geri alınması ilə sona çatan Doğu hərəkatında olmuş, Sarıqamışın, Qarsın, Gümrünün ermənilərdən geri alınmasında mühüm xidmətlər göstərmişdir. Azərbaycan türklərindən ibarət 15-ci süvari alayının bu qələbəsinə görə onun nəzdində 6-cı süvari tüməni təşkil edilmişdir. Bu tümən Şərq cəbhəsində İstiqlal savaşının sonuna qədər vəzifəsini yerinə yetirmişdir. Bu hərbi birlikdən başqa, milli mübarizənin müxtəlif cəbhələrində də xeyli azərbaycanlı zabit və əsgər könüllü xidmət etmişdir. Onların əksəriyyəti İstiqlal savaşından sonra orduda qalmış və yüksək rütbələrədək yüksəlmişlər.




Türkiyəyə çətin müharibə şəraitlərində daim kömək əlini uzadan Azərbaycanda yaradılmış Xeyriyyə Cəmiyyətinin də fəaliyyətini qeyd etmək lazımdır. Bu cəmiyyət tərəfindən Birinci Dünya müharibəsi zamanında rus işğalı altında olan ərazilərə – Oltu, Həsənqala, Hınıs, İspir, Van, Muş, Bəyazid, Ərzincan, Ərzurum, Qars, Trabzon və digər yerlərə ərzaq, pul, geyim, yanacaq və sair yardımlar göndərilmişdir. Bunun nəticəsidir ki, Qurtuluş savaşında Türkiyə yanacaqla bağlı çətinlik çəkməmişdir.

Azərbaycan türklərinin Türkiyə türklərinə yardım etməsi məsələsindən söz düşmüşkən bir faktı da qeyd etmək vacibdir. Belə ki, 1921-ci il martın 17-də Mustafa Kamal Atatürk Türkiyənin Bakıdakı səfiri Məmduh Şövkət bəy vasitəsilə Nəriman Nərimanovdan borc pul istəmiş, N.Nərimanov isə bu istək qarşılığında dərhal bir milyon qızıl göndərərək Mustafa Kamal Paşaya belə bir cavab yazmışdır: "Paşam, türk millətinin bir gələnəyi vardır; qardaş qardaşa borc verməz, əlindən tutar. Qardaş hər durumda qardaşın əlindən tutar. Hər zaman və hər şərtdə bir-birimizin əlindən tutacağıq. 1918-ci ildə siz bizim əlimizdən tutdunuz. Bizi mütləq bir ölümdən qurtardınız. Bu gün biz sizin qardaşınız olaraq əlinizdən tutmağa çalışacağıq. İmkanımızın çatdığı qədər pul göndərəcəyik. Bu gün sizin üçün etmək istədiyimiz bir qardaşın öz qardaşı üçün etmək istədiyindən başqa bir şey deyildir".

Ümummilli lider Heydər Əliyev Azərbaycanla Türkiyə arasında əlaqələrə daim diqqət yetirmiş, bu yaxınlığı yüz milyonlarla türkün artıq dillər əzbərinə çevrilmiş ***"bir millət, iki dövlət"*** sözləri ilə ifadə etmişdir. Ulu öndər demişdir: ***"Türkiyə və Azərbaycan xalqlarının tarixi birliyi və sarsılmaz dostluğu bizim ən böyük sərvətimizdir. Belə bir möhkəm təməl üzərində qurulmuş dövlətlərarası münasibətlərimizdə bir-birimizə inam və etibarımız, qarşılıqlı dəstəyimiz böyük məmnunluq doğurur".*** Təsadüfi deyil ki, Azərbaycanı 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində də ilk olaraq bütün sahələrdə dəstəkləyən, ona mənəvi dayaq duran Türkiyə Respublikası olmuşdur.

Böyük öndərlər – Heydər Əliyev və Mustafa Kamal Atatürkün Azərbaycan və Türkiyə üçün arzuları bu gün hər iki ölkədə reallaşdırılır. Bu gün iki qardaş ölkə arasında bütün sahələr üzrə qurulan əməkdaşlıq dünyaya nümunədir. Sevindirici haldır ki, sıx əlaqələrə malik olan Azərbaycan ilə Türkiyənin iqtisadi, siyasi, hərbi gücü, beynəlxalq aləmdəki nüfuzları hər il daha da artır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Türkiyə bizim qardaşımız, böyük müttəfiqimizdir. Azərbaycan xalqı Türkiyə kimi müttəfiqi olmasından çox məmnundur".***

*Türkün tarixi şanlı tarixdir. Türk əsgəri bir əsr bundan əvvəl Çanaqqalada şərəfli tarix yazdığı kimi, Azərbaycan əsgəri də Qarabağda bu tarixi yazdı. O dövrdə türk əsgərinin qəhrəmanlığı bütün dünyanı heyrətə saldığı kimi, bu dəfə də Azərbaycan əsgəri hər kəsi heyrətləndirdi. Buna görə də Çanaqqala və Qarabağ zəfərləri bütün Türk dünyasının zəfəri, hər iki tərəfin şəhidləri Türk dünyasının şəhidləridir.*

**"Şərq qapısı"**

# Maarifləndirici tədbir keçirilib



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Babək Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud şəxslərin, yaşı 18-dən az olanların və qadınların məşğulluğunun, sosial müdafiəsinin təmin edilməsi, həmçinin onların əməyindən qanunvericiliyə uyğun istifadə edilməsinə dair maarifləndirici seminar keçirilib. Tədbiri giriş sözü ilə Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Səbinə Abbasova açıb.

Sonra Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Canməmməd Canməmmədov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təsdiq etdiyi müvafiq Dövlət proqramlarının icrası çərçivəsində sağlamlıq imkanları məhdud şəxslərin və qadınların məşğulluğunun təmin edilməsi muxtar respublikamızda diqqət mərkəzində saxlanılır və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Qeyd edilib ki, bu sahədə görülən işlərlə yanaşı, bəzi müəssisələrdə sağlamlıq imkanları məhdud şəxslərin işdən qanunsuz azad olunması, bəzi hallarda isə məzuniyyət müddətinin düzgün təyin olunmaması hallarına rast gəlinir. Belə halların qarşısının alınması məqsədilə muxtar respublikanın şəhər və rayonlarında maarifləndirici tədbirlər keçirilir və bu tədbirlərin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulub.

Tədbirdə nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi Elnar Hüseynov və Dövlət Məşğulluq Agentliyinin direktoru Vüsal Süleymanlı çıxış edərək müəssisə və təşkilatlarda müvafiq kateqoriyadan olan şəxslərin və qadınların əmək hüququ, onların əməyindən qanunvericiliyə uyğun istifadə edilməsi, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün kvota tətbiq edilməsi qaydalarından danışıblar.

Sonda seminar iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Universitet Televiziyası muxtar respublikada yayıma başlayıb

*Naxçıvan Dövlət Universiteti Televiziyasının Naxçıvan Muxtar Respublikası miqyasında yayımının təqdimat mərasimi keçirilib.*

Tədbirdə Universitet Televiziyasının efiri izlənilib. Ali təhsil ocağının rektoru, dosent Elbrus İsayev çıxış edərək muxtar respublikada təhsilin inkişafına göstərilən dövlət qayğısı sayəsində universitetdə yaradılan müasir tədris şəraitindən, qazanılan uğurlardan danışıb. Qeyd edilib ki, muxtar respublikanın jurnalist kadrlarına olan ehtiyacı nəzərə alınmaqla universitetdə 2001-ci ildən Jurnalistika ixtisası üzrə kadr hazırlığına başlanılıb. Bildirilib ki, Ali Məclis Sədrinin diqqət və qayğısı, ixtisas müəllimlərinin, Media Mərkəzinin işçi heyəti və tələbə-jurnalistlərin xüsusi bacarığı və səyi nəticəsində Universitet Televiziyası fevral ayının 24-dən etibarən muxtar respublikada yayıma başlayıb. Vurğulanıb ki, televiziya həftənin I, III və V günləri saat 11-dən 15-dək efirdə olur. Rektor gənc jurnalist kadrların peşə hazırlığının yüksəldilməsi və gələcəkdə daha



böyük nailiyyətlərə imza atmaq üçün kollektivin birgə əməyinin zəruriliyini qeyd edib.

Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli muxtar respublika televiziyasının kadr potensialının təmin edilməsində Universitet Televiziyasının gələcək perspektivlərinin mühüm əhəmiyyətə malik olduğunu qeyd edib.

Naxçıvan Muxtar Respublikası Televiziya Ötürücü Mərkəzinin direktoru Hikmət Əhmədov yayım avadanlıqlarının yenilənməsi və televiziyanın maddi-texniki baza ilə təmin edilməsi məsələlərindən bəhs edib.

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının sədri Rauf Əliyev Universitet Televiziyasının gələcəyə hesablanmış inkişaf perspektivlərindən, Universitetin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri Səadət Əliyeva Universitet Televiziyasının yaradıcılıq imkanları, Universitet Televiziyasının əməkdaşı Aqşin Məhərrəmli televiziyanın maddi-texniki bazası haqqında danışıblar.

Çıxışlarda Universitet Televiziyasının keçdiyi tarixi yola nəzər salınıb, qazanılan uğurlar tədbir iştirakçılarının diqqətinə çatdırılıb. Göstərilən etimada layiq olmaq üçün qarşıda duran vəzifələrdən danışılıb.

Jurnalistika ixtisası üzrə II kurs tələbəsi Məcid Əkbərov tələbə-jurnalistlərin təcrübələrinin formalaşması məqsədilə yaradılan şərait üçün tələbələr adından öz minnətdarlığını ifadə edib.

Sonra Media Mərkəzinin fəaliyyətində aktiv iştirak edən tələbə-jurnalistlər universitetin təşəkkürnaməsi və kitabla təltif ediliblər.

Sonda universitetin Media Mərkəzində yaradılan şəraitlə tanışlıq olub, birgə əməkdaşlıq məsələləri müzakirə edilib.

**Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi**

---

*İstehsal müəssisələri*

# Bağlardan süfrələrimizə ekoloji təmiz məhsullar

***Qədim yurdumuzun hüsnünə xüsusi gözəllik verən yaz fəsli qədəmlərini yavaş-yavaş torpağa qoyduqca elimiz gözəlləşir, çiçək açır. Hara baxırsan, haraya üz tutursan, bağında, bostanında yaz qayğılarını çəkən insanlara rast gəlirsən. İlin bu vədəsində Şərur rayonu, Danyeri kənd sakini, ailə təsərrüfatı sahibi Yaqub Həsənovun da işi çoxdur, o, bağları səliqəyə salmaqla məşğuldur. Bu qədər ağacın məhsulunu harada və necə satışa çıxarır, – deyə maraqlanır, onunla həmsöhbət oluruq:***

– Uzun illərdir, bağçılıqla məşğul oluram. Yetişdirdiyim məhsulun şəxsi istifadədən artıq hissəsini bazara çıxarıram. Amma məhsul eyni vaxtda yetişdiyindən az bir müddətdə bazarda satıb qurtara bilmir, min bir əziyyətlə ərsəyə gətirdiyim məhsulun, demək olar ki, yarıdan çoxu zay olurdu. Son illər muxtar respublikamızda soyuducu anbarların, emal və sənaye müəssisələrinin tikilib istifadəyə verilməsi bu problemi aradan qaldırıb. Yetişdirdiyimiz məhsulun daimi alıcısı olduğuna inanıb daha səylə çalışır, daha çox məhsul əldə etmək üçün mövcud imkanlardan səmərəli istifadə etməyə səy göstəririk. Bağlarımızda yetişdirdiyimiz meyvələr öz emal müəssisələrimizdə istehsal olunaraq süfrəmizə gəlir. Bilirik ki, içdiyimiz meyvə suyu təmiz şəkildə qatqı maddələri qatılmayaraq emal edilib. Uzun illərdir, bağçılıqla məşğul olduğunu deyən Yaqub əmi onu da diqqətimizə çatdırır ki, vaxtilə sovetlər dönəmində indi işlədiyimizdən çox çalışsaq da, zəhmətimizin bəhrəsini görə bilmirdik. Yetmiş il istismar olunduğumuzu həmin quruluş dağılanda hiss etdik. Yaqub Həsənovla söhbətimiz əsnasında bir daha aydın olur ki, müstəqilliyi qazandığımız ilk dövrdə çox çətinliklərlə üzləşsək də, xalqımızın ulu öndərinin qayıdışı yurdumuza can verdi. Dahi rəhbərin uzaqgörənliyi ilə torpaq əsl sahibinə qaytarıldı. Həmin illərdə əsası qoyulan torpaq islahatları bu gün öz bəhrəsini verir. Yaqub əmi vurğulayır ki, Ali Məclis Sədrinin diqqət və qayğısı ilə yaradılan şərait bizim işimizi daha da asanlaşdırır. Bu gün kəndli əlinin qabarı, alnının təri ilə yetişdirdiyi məhsulu istədiyi kimi dəyərləndirir. Mən də bir çox zəhmət adamları kimi bağımda yetişdirdiyim alma, şaftalı, gilənar və digər məhsulları “Gəmiqaya Meyvə Məhsulları”, “Gəmiqaya Şərab Məhsulları” Məhdud Məsuliyyətli cəmiyyətlərinə təhvil verirəm.

Zəhmət adamı ilə söhbətimizdən sonra həmin emal müəssisələrinə üz tutub, onların fəaliyyəti ilə tanış olmaq qərarına gəldik.

Son illər keyfiyyətli məhsul istehsalı ilə adından söz edilən həmin cəmiyyətlərin direktoru Yunis Yaqubovla müəssisəni gəzdik. Öyrəndik ki, burada müxtəlif meyvə şirələri, şərab istehsal olunur. Müəssisənin illik istehsal gücü 120 dekalitr meyvə şirələri və şərab məhsullarıdır. Burada İtaliya və Almaniya istehsalı olan müasir avadanlıqlar quraşdırılıb. Naxçıvanın bol-bəhərli bağlarında yetişdirilən meyvələrdən tam gigiyenik qaydada yüksəkkeyfiyyətli müxtəlif həcm və çeşidlərdə alma, ərik, şaftalı, gilənar və qarışıq tərkibli nektarlar istehsal edilir. Həmin məhsullar “Badamlı”, “Fruta” əmtəə nişanı ilə satışa çıxarılır. Müəssisədə meyvə nektarlarının karton taralara qablaşdırılması layihəsinin həyata keçirilməsinə başlanılıb. Bunun üçün yeni bina inşa olunub və burada İsveçin “Tetra Pak” firmasının istehsal gücü saatda 7 ton olmaqla, 1 litrlik və 200 millilitrlik taralar olan müasir texnoloji avadanlıqları quraşdırılıb. Nəfis tərtibatla bəzədilmiş karton taraların üzərində Azərbaycan, ingilis və rus dillərində məhsulun istehsal və son istifadə tarixi, tərkibi, istifadə qaydası, saxlanma şəraiti, standart göstəriciləri və mənşəyi haqqında məlumatlar göstərilir ki, bu da məhsulun istənilən xarici bazarda özünə yer tuta bildiyindən xəbər verir. Diyarımızın ən qədim əkinçilik sahələrindən biri olan üzümçülüyün inkişaf perspektivləri nəzərə alınaraq qurulan şərab emalı sahəsində istehsal prosesi tam avtomatlaşdırılıb. Müəssisədə istehsal olunan 4 çeşiddə kaqor, kəmşirin, ağ və qırmızı süfrə şərabları “Mirvari” və “Qızıl damla” adları ilə satışa çıxarılır.





Müsahibim deyir ki, istehsal olunan məhsulların xammalı, əsasən, yerli sahibkarlardan, kənd adamlarından alınır ki, bu da aqrar sektorun inkişafına, eləcə də torpaq mülkiyyətçilərinin alıcı problemi ilə üzləşməmələrinə öz müsbət təsirini göstərir. Elə vaxt olur ki, ağac çox meyvə gətirməsi səbəbindən, bəzən də, təbiət hadisələri nəticəsində yerə tökülür, zədələnir. Belə zədələnmiş məhsulu nə soyuducu anbara təhvil vermək olur, nə də bazara çıxarmaq. Biz zədələnən meyvələri də uyğun qiymətə alır, meyvə suyuna, şəraba çeviririk. Belə ki, həmin zədələnmiş meyvələr təmizlənir, onun yararsız hissəsi götürülür, qalan hissə də çəyirdəyindən ayrılaraq xammala çevrilir. Yerli məhsullardan hazırlanan meyvə nektarları isə yüksək keyfiyyəti ilə seçilir, bazarda özünəməxsus yer tutur. Bu da həm istehsalçı, həm də istehlakçı üçün sərfəlidir. Bu ildə də ötən dövrdə olduğu kimi, bu istiqamətdə işlər uğurla davam etdiriləcək. Meyvə bağlarında yetişdirilən məhsulların tədarük olunması diqqət mərkəzində saxlanılacaq. Ayrı-ayrı rayonlardan gətirilən məhsullar vaxtında qəbul edilərək xammal halına gətiriləcək. Müəssisədə ikinci bir xətt də vardır ki, burada hazır məhsulu püreyə çevirir, xüsusi qablaşdırmalarda, aseptik torbalarda, soyuducu anbarlarda saxlayır, yaz və qış fəsillərində keyfiyyətli məhsul əldə edirik. Bu il də sahibkarlardan, kənd sakinlərindən alınan meyvələr tədarük olunub eyni qaydada hazır məhsula çevriləcək. Hazırlanan xammala qoruyucu və kifonləyici maddələr vurmağa ehtiyac olmur. Çünki Naxçıvanın bərəkətli torpaqlarında yetişdirilən meyvələr ekoloji cəhətdən çox təmizdir. Naxçıvanda yetişən meyvələrdə şəkərlilik (biriks )miqdarı ölkəmizin digər bölgələrindən daha çox olduğu üçün yüksəkkeyfiyyətli məhsul istehsal olunur. Hazırlanmış meyvə püresi, cemi laboratoriyamızda yoxlanılır, baxış keçirilir, şəkərlilik dərəcəsinə uyğun olaraq cemin həcmi artırılır və məhsul hazırlanır.

Müəssisənin direktoru onu da diqqətimizə çatdırır ki, mühüm coğrafi mövqedə yerləşən qədim yurdumuz Vətənimizin ən qədim meyvəçilik regionlarından biri hesab edilir. Əlverişli oroqrafik xüsusiyyətlərə və torpaq-iqlim faktorlarına malik olan Naxçıvan Muxtar Respublikasında Ali Məclis Sədrinin müvafiq sərəncamı ilə təsdiq edilmiş və icrası başa çatmış, Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə iki Dövlət proqramının icrası nəticəsində meyvəçilik sahəsində yüksək göstəricilərə nail olunub. Mart ayının 12-də Ali Məclisin Sədri cənab Vasif Talıbov “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Yeni Dövlət proqramı əvvəlki proqramların icrası dövründə əldə olunmuş müsbət nəticələrin davamlılığını təmin edəcəkdir. Meyvə-tərəvəzə olan tələbatın yerli istehsal hesabına ödənilməsi və ixrac imkanlarının artırılması, müvafiq sahədə ailə təsərrüfatlarının fəaliyyətinin genişləndirilməsi, müasir texnologiyalar əsasında yeni meyvə və tərəvəz emalı müəssisələrinin qurulması proqramın əsas məqsədlərindən biridir. Bu Dövlət proqramının reallaşdırılması bundan sonra da daxili bazarda meyvə-tərəvəz məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsini, ixracyönümlü və ekoloji təmiz meyvə-tərəvəz məhsulları istehsalı sahələrinin yaradılmasını, muxtar respublikanın rayonlarında relyef və iqlim şəraiti nəzərə alınmaqla yeni meyvə bağlarının salınmasını, tərəvəz əkininin genişləndirilməsini təmin edəcək.



Burada texnoloq vəzifəsində çalışan, ABŞ-da bu sahə üzrə xüsusi kurs keçmiş gənc mütəxəssis Nazim Cəfərli, texnoloq Elşad Novruzov bildirdilər ki, istehsal olunan məhsullar ölkəmizin digər regionlarında da satışa çıxarılır, xarici ölkələrə ixrac olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Belə ki, müəssisədə möhkəm baza yaradılıb, bütün istehsal prosesi İSO keyfiyyətli idarəetmə sisteminin və ərzaq təhlükəsizliyi tələblərinə tam uyğun şəkildə təşkil edildiyi üçün müəssisə İSO 9001 və İSO 22000 sertifikatlarına uyğunluğu təsdiq olunaraq sertifikatlaşdırılıb. Bir neçə ildir ki, istehsal edilən meyvə nektarları Gürcüstan bazarına da çıxarılır.

Yunis Yaqubov onu da deyir ki, bu gün müəssisələrin qarşısında duran əsas vəzifələrdən biri bazar iqtisadiyyatı şəraitinə uyğunlaşmaqdır. Bu yaşamaq və sonrakı inkişaf üçün zəruri şərtdir. Müasir bazar iqtisadiyyatı buraxılan əmtəənin keyfiyyətinə qarşı prinsipcə başqa tələblər irəli sürür. Hazırkı zamanda hər bir şirkətin yaşaması, onun əmtəə və xidmət bazarlarındakı sabit vəziyyəti rəqabətədavamlılıq həddi ilə ölçülür. Öz növbəsində, rəqabətədavamlılıq iki göstərici – birincisi, qiymətin və məhsulun keyfiyyətinin səviyyəsi ilə bağlıdır. İkinci amil tədricən birinci yerə çıxır. Məhsulun keyfiyyəti şirkətin nüfuzunun artması, gəlirinin çoxalması, yüksəlməsi deməkdir. Buna görə də, keyfiyyətin idarə olunması üzrə iş rəhbərdən tutmuş hər bir işçi üçün mühüm şərtdir. Məhsulun keyfiyyətinin yüksəldilməsi dünyanın aparıcı şirkətlərinin işinin xarakterik tendensiyasıdır. Müəssisədə yaradılan laboratoriya emal edilən məhsulun keyfiyyətinə nəzarətə də şərait yaradır. Operator vəzifəsində yeddi ildir, çalışan Coşqun Məmmədov deyir ki, meyvə şirəsini analiz etmək üçün laboratoriyamızda hər cür şərait yaradılıb. Şirələrdən müəyyən olunmuş qaydada analiz götürür və müasir standartların tələb etdiyi şəkildə müayinədən keçiririk. Eyni qaydada şərab istehsalı sahəsində emal edilən məhsulların da keyfiyyətinə nəzarət edirik. Çalışırıq ki, emal etdiyimiz məhsul standartlara cavab versin. Burada istehsal edilən meyvə suları kiçikdən-böyüyə hamının sevdiyi içkiyə çevrilsin.

*Sağlam bir orqanizm üçün güclü immunitet lazımdır. Bu olmasa, orqanizm bütün xəstəliklər və infeksiyalar qarşısında aciz qalar. İmmunitetin güclü olması üçün antioksidantların, vitamin və mineralların orqanizmə qəbulu vacibdir. Orqanizmin güclü olmasının sirri isə meyvələrdədir. Güclü immunitet üçün vitaminlərlə zəngin olan meyvələrdən istifadə etmək tövsiyə olunur. Meyvə şirələrinin sehrli qüvvəsi isə danılmazdır. Təbii ki, bu şirələr qədim Naxçıvanımızın bağlarından toplanıb emal edilən, bu gün süfrələrimizin bəzəyinə çevrilən “Gəmiqaya Meyvə Məhsulları”nın məhsullarıdır.*

**Ramiyyə ƏKBƏROVA**

## Yarmarkadakı bolluq süfrələrimizdə bolluq deməkdir

***Bahar zəhmət, əmək və nemət fəslidir. İlin bu fəslində hava təmiz, Günəş bol, arzular qanadlı, qəlblər ilhamla dolu olur. İnsanları baharın gəlməsi, təbiətin oyanması, həyatın canlanması ilə müjdələyən Novruz ən qədim dövrlərdən bəri xalqımızın sevinc, şadlıq bayramı olub, tariximizin müxtəlif dövrlərində bəzi təzyiqlərə və süni maneələrə məruz qalmasına baxmayaraq, bu günümüzə qədər gəlib çatıbdır. Novruz bayramı ürəklərdə saf duyğuların oyanması, insanlar arasında səmimiyyət, mehribanlıq, qardaşlıq tellərinin möhkəmləndirilməsi, onların bir-birinə diqqətinin və qayğısının artırılması üçün gözəl zəmin yaradır.***





Hər il olduğu kimi, bu il də Naxçıvan şəhərindəki Mərkəzi Bazarda baharın gəlişi, Novruz bayramı münasibətilə təşkil edilən yarmarkada xoş əhval-ruhiyyə hiss edilir. Yarmarkanın elə ilk günündə buraya gələnlərin ardı-arası kəsilmir. Hiss olunur ki, sakinlər neçə illərdir, mütəmadi olaraq keçirilən belə tədbirlərdən xeyli razıdırlar. Bunu insanların çöhrələrindən də duymaq çətin deyil. Çünki onlar keyfiyyəti ilə seçilən yerli məhsulları buradan münasib qiymətə ala bilirlər. İstehlakçılara kənd təsərrüfatı məhsulları ilə yanaşı, digər ərzaq malları da təklif olunur. Yarmarkanın təşkil olunmasında məqsəd şəhər əhalisinin kənd təsərrüfatı və ərzaq məhsullarına tələbatının daha dolğun ödənilməsi, istehlakçıların seçim imkanlarının artırılması, süni qiymət artımının qarşısının alınmasından ibarətdir.

Biz də həm ziyarət, həm ticarət, – deyib satıcı və alıcılarla həmsöhbət oluruq.

Ordubad rayonunun Vənənd kəndindən gəlmiş Yaqut Babayeva muxtar respublikamızdakı fəal qadın ailə təsərrüfatçılarından biridir. O deyir:

– Diyarımızda təsərrüfatçılar üçün hər cür şərait yaradılıb. Kim istəyir həyətində, pay torpağında istixana yaradır, bunun sayəsində isə qış fəslində də bazar və dükanlarımızda təzə göyərti, tərəvəz bol olur. Həyətyanı sahəmdə və pay torpağımda əkib-becərdiyim məhsullardan hazırladığım yeməkləri, müxtəlif turşu növlərini, mürəbbə, doşab, meyvə cemlərini yarmarkaya gətirmişəm. Bunlarla yanaşı, qida kimi istifadə olunan yabanı bitkilərin, gündəlik istifadə etdiyimiz göyərtilərin qurusu da alıcıların diqqətini cəlb edir.

Kəngərli rayonundan olan İlyas Osmanov da ailə təsərrüfatı sahibidir. O, yarmarkaya müxtəlif məhsullar gətirib. Deyir ki, münbit torpağımız və dövlət qayğısı bizi öz elimizə, obamıza daha möhkəm bağlayıb. Əmək sərf edərək əkib-becərir, qarşılığını isə ikiqat görürük. İndi istər qadın, istərsə də kişi olsun, zəhmət çəkən bəhrəsini dadır. Dövlətimiz bizim yaxşı dolanışığımız üçün hər cür şərait yaradıb. Məhsulumuzu istədiyimiz kimi satır, ailə büdcəmizi artırırıq. Bu cür yarmarkaların təşkili hamının ürəyincədir.

Naxçıvan şəhər sakini Anar Əliyev də yarmarkaya məhsul gətirənlər sırasındadır. Onun dediklərindən:

– Yarmarkaya məhsul gətirənlərə hərtərəfli şərait yaradılıb. Səliqə-sahman da satıcı və alıcıların ürəyincədir. Burada məhsulları bazar qiymətindən 10-15 faiz ucuz təklif edirik. Yarmarkaya gətirdiyim müxtəlif ölçüdə qablaşdırmalarda partlayan qarğıdalı, qovurğa, sumaq da alıcıların diqqətini cəlb edir. İndiyədək gətirdiyim məhsulun, demək olar ki, yarıdan çoxunu satmışam.

Yarmarkaya gəlmişkən buradakı alıcılarla da həmsöhbət oluruq. Naxçıvan şəhər sakini Validə Məmmədovanın dediklərindən:

– Bu günlərdə biz qadınları düşündürən əsas məsələ bayramda süfrəmizi necə bəzəyəcəyimizdir. Əvvəllər bayram yaxınlaşanda bilmirdik ki, neyləyək. 90-cı illərin əvvəlləri yaxşı yadımdadır, həm meyvə, həm tərəvəz, həm də ki, ət sarıdan əziyyət çəkirdik. Uşağın da, qonağın da yanında üzüqara olurdu insan. Bu gün isə min şükür, sağ olsun, dövlətimizi bolluq yaradıb. Ürəyin istəyən yerli məhsulu keyfiyyət və dadına əminliklə alıb süfrəyə qoya bilirsən.

Həmsöhbət olduğum digər şəhər sakinləri də yarmarkanın təşkilindən razılıq etdilər. Bildirdilər ki, belə tədbirlər torpaq mülkiyyətçilərinin min bir zəhmətlə yetişdirdikləri məhsulları rahatlıqla satmalarına və ailə büdcələrinin gəlirlərini artırmalarına şərait yaratmaqla yanaşı, daxili bazarı yerli məhsullarla da təmin edir. Yerli məhsullarımız isə həm dad-tamı, həm keyfiyyəti, həm də qiyməti ilə sakinləri daim cəlb edir.

Biz də qarşıdan gələn əziz bayramı rəngarəng və ləziz nemətlərlə dolu zəngin süfrə arxasında keçirmək istəyən yurddaşlarımızı bu yarmarkaya dəvət edirik.

**Telli MƏMMƏDOVA**

## Seminar keçirilib

*Şərur rayonunda fəaliyyət göstərən ümumtəhsil məktəbləri, məktəbəqədər və məktəbdənkənar təhsil müəssisələrinin sanitar-gigiyenik vəziyyəti ilə bağlı maarifləndirici seminar keçirilmişdir.*

Tədbiri giriş sözü ilə Şərur Rayon İcra Hakimiyyəti Aparatının əməkdaşı Surəyya Başirova açmışdır.

Sonra Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının rəhbəri Eltun Həziyev, Təhsil Nazirliyi Aparatının Ümumtəhsil məktəbləri və liseylərlə iş üzrə şöbəsinin müdiri Abdulla Əsgərov, Gigiyena və Epidemiologiya Mərkəzinin Sanitar-gigiyena şöbəsinin müdiri Elxan Orucəliyev tədbirdə çıxış etmişlər. Çıxışlarda muxtar respublikada fəaliyyət göstərən dövlət uşaq müəssisələrində sanitar-gigiyenik normaların daha da təkmil təmin olunması, məktəbyaşlı uşaqların sağlamlığının qorunması, onların müayinə və müalicəsinə göstərilən diqqət, dispanserizasiyanın təşkili, yoluxucu xəstəliklərin profilaktikası barədə məlumat verilmişdir.

Sonda tədbir iştirakçılarına müvafiq sahə ilə əlaqədar hazırlanmış bukletlər paylanılmışdır.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Mədəni tədbirlər davam etdirilir

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi və tabe müəssisələr tərəfindən pandemiya ilə əlaqədar xüsusi qaydalara ciddi riayət edilməklə fevral ayında da bir sıra tədbirlər keçirilmişdir.***



Ötən ayın ən əlamətdar mədəni hadisələrindən biri Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Vaqif Səmədoğlunun "Mamoy kişinin yuxuları" pyesi əsasında hazırlanan eyniadlı tamaşanın onlayn formada teatrsevərlərə nümayişi olmuşdur. Tamaşa Naxçıvan Dövlət Televiziyasında, həmçinin Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin rəsmi internet saytında və sosial şəbəkə hesablarında canlı olaraq yayımlanmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası ilə bağlı nazirliyin hamiliyinə verilmiş Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Müəllimlər İnstitutunun müvafiq ixtisasları üzrə təhsil alan tələbələri üçün 2 açıq dərs keçilmiş, 1 mühazirə oxunmuş, 1 kitab müzakirəsi təşkil edilmiş və 1 film nümayiş olunmuşdur.

Fevral ayında da muxtar respublika sakinlərinin, eləcə də Azərbaycanın digər bölgələrindən və xarici ölkələrdən diyarımıza səfər edən qonaqların, rəsmi nümayəndə heyətlərinin muzeylərlə tanışlığı zamanı onlara nümunəvi muzey xidməti göstərilmişdir. Son bir ayda muxtar respublikanın muzeylərinə 9 min 668 yerli, 260 əcnəbi olmaqla, ümumilikdə, 9 min 928 tamaşaçı ziyarəti olmuş, muzeylərə 119 yeni eksponat daxil edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamına uyğun olaraq aid təşkilatlarla birgə Dövlət Bayrağı Muzeyində, Cəlil Məmmədquluzadənin anadan olmasının 152-ci ildönümü münasibətilə ədibin ev-muzeyində və Xocalı faciəsinin növbəti ildönümü ilə əlaqədar Xatirə Muzeyində interaktiv dərslər keçilmişdir. Dərslər muxtar respublikanın 200-dən çox təhsil müəssisəsi tərəfindən izlənmişdir. Bundan başqa, Naxçıvan Muxtar Respublikasının Təhsil və Mədəniyyət nazirliklərinin birgə qrafikinə əsasən ümumtəhsil məktəblərinin şagirdləri üçün muxtar respublikadakı muzeylərdə, ümumilikdə, 57 açıq dərs keçilmiş, 1 mühazirə oxunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi ili" elan edilməsi haqqında" 2021-ci il 5 yanvar tarixli Sərəncamına əsasən Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası "Nizami və dünya ədəbiyyatı" adlı tədbir, Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası Yazıçılar Birliyi ilə birgə "Şərq poeziyasının günəşi Nizami Gəncəvi" mövzusunda oxucu konfransı keçirmişdir. Sərəncamın icrası ilə bağlı ay ərzində rayon (şəhər) Mərkəzləşmiş Kitabxana sistemləri də (MKS) daxil olmaqla, 14 tədbir keçirilmişdir ki, onlardan 1-i onlayn olmuşdur.

Ay ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Oxunması zəruri olan kitabların Siyahısı"ndakı kitablar da daxil olmaqla, muxtar respublikadakı kitabxanalar tərəfindən 20, klub müəssisələri əməkdaşlarının iştirakı ilə 16, gənclərin iştirakı ilə 1 olmaqla, 37 kitab müzakirəsi keçirilmiş, onlardan 16-sı onlayn formatda təşkil edilmişdir. Hesabat ayında nazirliyə tabe müəssisələrin Gənclər birlikləri üzvlərinin iştirakı ilə müxtəlif mövzularda tədbirlər keçirilmiş, bilik yarışları təşkil edilmiş, kitab müzakirələri aparılmışdır.

Fevral ayında kitabxanalarda yeni oxucu sayı 739, oxucu gəlişi 15 min 44, kitab verilişi isə 45 min 706 nüsxə olmuşdur. Bu müddət ərzində elektron kataloqa 715 adda kitab işlənmiş, ümumilikdə, elektron kataloqdakı kitabların sayı 21 min 472-dən 22 min 187-yə çatdırılmışdır. Bundan başqa, şəbəkəyə 51 kitab (PDF) işlənmiş və ümumi say 3 min 255-dən 3 min 306-ya çatdırılmışdır. Ay ərzində elektron kitabxanadan 275 lokal, 594 qlobal olmaqla, 869 oxucu istifadə etmişdir.

Ötən ay muxtar respublikanın teatrlarında hazırlanan tamaşaların məşqləri aparılmışdır. Həmçinin cari ilin yanvar ayında elan edilmiş "Mədəniyyətin izi ilə" sosial mədəniyyət layihəsinə fevral ayında da materialların qəbulu davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Milli qanunvericiliyə əsasən dövlət rüsumu nədir və onun ödəyiciləri kimlərdir?*

**Cavab:** Dövlət rüsumu – dövlət orqanları və müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumlar tərəfindən hakimiyyət səlahiyyətlərinin icrası zamanı göstərilən və hüquqi nəticələrin yaranmasına səbəb olan xidmətlərə və hüquqi hərəkətlərə görə (sənədlərin tərtibi, qeydiyyatı, razılıqların verilməsi və sair) ödənilən haqdır. Qanunda nəzərdə tutulmuş işlərin görülməsi, xidmətlərin göstərilməsi və hüquqların əldə edilməsi üçün Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və hüquqi şəxslər dövlət rüsumunun ödəyiciləridir.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyası *2021-2022-ci tədris ili üçün təhsilin bakalavriat səviyyəsinə kursant (tələbə) qəbulu elan edir*

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasına 2021/2022-ci tədris ili üçün qəbula namizədlər

*- boyu 170 santimetrdən az olmayan,*

*- tam orta təhsilli və ya tam orta məktəbin buraxılış sinfində oxuyan,*

*- 15 sentyabr 2021-ci ilədək 17 yaşı tamam olan,*

*- yaxud müddətli həqiqi hərbi xidmətini başa vuraraq ehtiyata buraxılmış və 15 sentyabr 2021-ci ilədək 23 yaşı tamam olmayan Azərbaycan Respublikasının vətəndaşları sırasından seçilir.*

Akademiyaya qəbul olmaq arzusunda olanlar Fövqəladə Hallar Nazirliyinin Xüsusi həkim ekspertiza komissiyasından və Fövqəladə Hallar Nazirliyi tərəfindən qəbul edilmiş qaydalara müvafiq olaraq fiziki hazırlıq və seçmə komissiyalarında sınaqdan keçməlidirlər.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı test imtahanlarında iştirak etmək üçün Dövlət İmtahan Mərkəzinə göndərilir.

Qəbul imtahanı test üsulu ilə I ixtisas qrupuna daxil olan fənlər üzrə keçirilir.

Test imtahanlarının keçirilməsi qaydaları ilə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının internet saytında və kütləvi informasiya vasitələrində verilən elanlarda tanış olmaq olar.

Akademiyaya qəbul olunan şəxslər təhsil müddətində yemək, geyim forması və yataqxana ilə təmin olunur, təqaüd alırlar.

Akademiyada təhsil müddəti 4 ildir.

Tədris Azərbaycan dilində aparılır.

Akademiyanın məzunlarına müvafiq olaraq Yanğın təhlükəsizliyi mühəndisliyi və Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi ixtisasları üzrə "bakalavr" ali-peşə ixtisas dərəcəsi verilir. Onlar zabit və ya orta rəis heyəti rütbələri verilməklə Fövqəladə Hallar Nazirliyi sistemində vəzifələrə təyinat alırlar.

Akademiyaya qəbul olmaq istəyənlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- *tərcümeyi-hal (abituriyentin şəxsən özü tərəfindən yazılmış);*
- *şəxsiyyət vəsiqəsinin və doğum haqqında şəhadətnamənin notarial qaydada təsdiq olunmuş surəti;*
- *hərbi biletin və ya hərbi xidmətə çağırış məntəqəsinə təhkimedilmə vəsiqəsinin əsli və notarial qaydada təsdiq olunmuş surəti;*
- *tam orta məktəbdən, işlədiyi təqdirdə iş yerindən və ya hərbi hissədən xasiyyətnamə;*
- *tam orta təhsil haqqında sənədin əsli və notarial qaydada təsdiq olunmuş surəti, yaxud tam orta məktəbin buraxılış sinfində oxuması haqqında müəyyən olunmuş formada arayış;*
- *yaşayış yerindən arayış (daimi qeydiyyat yerində yaşamadığı halda);*
- *xüsusi həkim ekspertiza komissiyasına təqdim olunması üçün yaşayış yeri üzrə ruhi-əsəb, narkoloji, dəri-zöhrəvi, vərəm dispanserlərindən və QİÇS haqqında arayışlar, qeydiyyat yeri üzrə poliklinikaya son 5 il ərzində müraciətləri haqqında qısa epikriz;*
- *4 ədəd 6x4 santimetr ölçüdə rəngli fotoşəkil (ağ fonda, tünd rəngli pencəkdə).*

***Sənədlər 2021-ci il mart ayının 1-dən aprel ayının 15-dək (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat 10[00]-dan 17[00]-dək Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsində (Naxçıvan şəhəri, Ə.Əliyev küçəsi 5C) qəbul ediləcək. Əlaqə telefonu: (036) 544-57-32***

### İtmişdir

Şərur rayonu, Yuxarı Aralıq kənd sakini Həsənova Zərifə İsmayıl qızının adına verilmiş JN-78A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yuxarı Aralıq kənd sakini Həsənov İsmayıl Yunis oğlunun adına verilmiş JN-79A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Axaməd kənd sakini Nağıyev Çingiz Əli oğlunun adına verilmiş JN-106 inventar nömrəli torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Sərxanlı kənd sakini Yusifov Əhəd Tofiq oğlunun adına verilmiş JN-112A və JN-112B inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Oğlanqala kənd sakini Abdullayev Yusif Firudin oğlunun adına verilmiş JN-774A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Osmanov Yusif Osman oğlunun adına olan torpaq sahəsinin AA-007830 nömrəli plan və ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 249